Nizami rayonuna yeni icra başçısı t yin olunub.



"Dalğa TV" xəbər verir ki, bu barədə məlumatı Azinforum.az saytı yayıb. Məlumata görə, yeni icra başçısı Arif Adil oğlu Qasımovdur. O, bu vəzifəyə Siyəzən rayon icra başçısı postundan təyinat alıb.

Arif Adil oğlu Qasımov 12 mart 1965-ci ildə Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, Xanlıqlar kəndində anadan olub. Azərbaycan Dövlət İqtisad İnstitutunu iqtisadçı və Naxçıvan Dövlət Universitetini hüquqşünas ixtisasları üzrə bitirib. Əmək fəaliyyətinə başladıqdan sonra müxtəlif vəzifələrdə, o cümlədən Naxçıvan Muxtar Respublikası dövlət əmlakı nazirinin köməkçisi, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsi, Nizami Rayon İcra Hakimiyyəti başçısının Keşlə qəsəbəsi üzrə nümayəndəsi vəzifələrində işləmişdir. Sonuncu iş yeri Bakı şəhəri, Nizami Bələdiyyəsinin sədri vəzifəsi olub. Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2011-ci il tarixli sərəncamı ilə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Evlidir. 3 övladı var.

Arif Qasımov "Qafqazinfo"ya açıqlamasında təyinatı ilə bağlı xəbəri təsdiqləyib.